

# QISA İCMAL

2026

Avropa İnvestisiya Bankı | Qrup

# QISA İCMAL

2026

Avropa İnvestisiya Bankı | Qrup

**Qısa İcmal, 2026**

**© Avropa İnvestisiya Bankı, 2026**
98-100, boulevard Konrad Adenauer
L-2950 Luxembourg

Bütün hüquqlar qorunur.
Hüquqlar və icazələrin alınması ilə bağlı bütün suallar aşağıdakı e-poçt ünvanına yönləndirilməlidir: publications@eib.org.

AİB Qrupunun fəaliyyəti barədə daha ətraflı məlumat üçün veb-saytımızı ziyarət etməyinizi xahiş edirik: www.eib.org.
Aşağıdakı e-poçt ünvanı vasitəsilə də əlaqə saxlaya bilərsiniz: info@eib.org.
Elektron xəbər bülletenimizi www.eib.org/sign-up səhifəsi vasitəsilə əldə edə bilərsiniz.

© Fotonun müəllif hüququ: AİB Qrupu, Inelfe, Nokia, Alfredas Pliadis, Shutterstock, Jolt.

**Məsuliyyətdən imtina**
Sənədin hazırkı tərcüməsi ilə ingilis dilində olan əsli arasında uyğunsuzluq olarsa, ingilis dilində olan versiya üstünlük təşkil edəcək.

Avropa İnvestisiya Bankı tərəfindən nəşr olunub.
FSC® kağızında çap edilib.

pdf: QH-01-26-001-AZ-N ISBN 978-92-861-6192-6 doi: 10.2867/6107588

# AVROPA İNVESTİSİYA BANKI QRUPU HAQQINDA

**Avropa İnvestisiya Bankı Qrupu daha sabit və sülhsevər dünyada güclü Avropanın bərqərar olmasında mühüm rol oynayır.**

AİB Qrupu Avropa İnvestisiya Bankı vasitəsilə hər il yüzlərlə iri və kiçik layihə üçün uzunmüddətli kreditlər təqdim edir. 2025-ci ildə bu maliyyələşdirmə rekord məbləğə – 100 milyard avroya çatıb. O, həmçinin Avropa İnvestisiya Fondu vasitəsilə sürətlə böyüyən, innovativ şirkətləri dəstəkləyir.

1958-ci ildə Avropa İnvestisiya Bankı ilə əsası qoyulmuş və Avropa İttifaqının 27 üzv dövlətinə məxsus olan AİB Qrupu kredit portfelinin təxminən 10%-ni Avropa İttifaqından kənarda 160-dan çox ölkədə həyata keçirilən layihələrə yönəldir. Biz çoxtərəfli inkişaf bankları ailəsinin əsas üzvlərindən biri kimi qlobal tərəqqiyə töhfə veririk. Bu fəaliyyət güclü və qarşılıqlı faydalı tərəfdaşlıqlar yaradır.

Özünün böyük miqyasına, şaxələndirilmiş portfelinə və güclü tərəfdaşlıqlarına əsaslanaraq, AİB Qrupu Avropada kapital bazarlarını təkmilləşdirən və institusional investorlardan əlavə maliyyələşmənin səfərbər olunmasını təmin edən platformaları və maliyyə alətlərini dəstəkləyir.

**AİB Qrupu Avropanın uğurunun rəmzidir. Biz insanlara, bizneslərə, investorlara və maliyyə bazarlarına etimad və sabitlik mesajı ötürürük. Avropada və dünyanın hər yerində.**

# 2025-Cİ İLDƏ TƏSİRİMİZ

**AİB QRUPU TƏRƏFİNDƏN MALIYYƏLƏŞDIRMƏ** **100 milyard avro**

O cümlədən **9 milyard avro**
Avropa İttifaqından kənarda

**AVROPA İNVESTİSİYA FONDU TƏRƏFİNDƏN 2025-Cİ İLDƏ İMZALANMIŞ sazişlər** **16 milyard avro**

**20.6 milyard avro** Dayanıqlı şəhərlər və regionlar

**33 milyard avro** Avropa İttifaqında enerji təhlükəsizliyi

**57 milyard avro** İqlim tədbirləri və ətraf mühitin dayanıqlılığı

**27.8 milyard avro** Yaşıl və dayanıqlılıq istiqrazları

**9.8 milyard avro** Bərpa olunan enerji
(yalnız Avropa İnvestisiya Bankı)

**10.3 milyard avro** Sosial infrastruktur

**22.4 milyard avro** «TechEU» proqramı çərçivəsində maliyyələşdirmə

**4 milyard avro** Təhlükəsizlik və müdafiə

**29.7 milyard avro** Məsləhət yardımı ilə dəstəklənən maliyyələşdirmə

**26.8 milyon nəfər** Təmiz içməli su ilə təchiz olunmuş insanlar

**9.2 milyon nəfər** Sanitariya şəraiti yaxşılaşdırılmış insanlar

**18.5 milyon nəfər** Quraqlıqdan daha yaxşı qorunan insanlar

**6.9 milyon nəfər** Daşqından daha yaxşı qorunan insanlar

# BİZİM PRİORİTETLƏRİMİZ

Hər il AİB Qrupu Avropa İttifaqının prioritetlərini – iqlim tədbirləri, texnologiya, maddi baxımdan əlçatan mənzil təminatı, təhlükəsizlik və müdafiə, kənd təsərrüfatı və bir çox digər sektorları dəstəkləyən yüzlərlə yeni layihəni maliyyələşdirir. Bizim fəaliyyətimiz Avropa üzrə imkanların geniş yayılmasına şərait yaradır, dayanıqlı maliyyələşdirməni sürətləndirir, kapital bazarlarının inkişafını təşviq edir və Avropanın qlobal miqyasda güclü mövqeyini qoruyur.



# 1

**Biskay körfəzi interkonnektoru İberiya yarımadası ilə Avropanın qalan hissəsi arasında elektrik ötürmə gücünü artıracaq mühüm bir layihədir.**

# İQLİM BANKI

**Avropa İnvestisiya Bankı Qrupu təmiz enerjiyə keçidin ön sıralarında yer alır. Biz bütün ölçülərdə olan şirkətlərdə istixana qazı emissiyalarını azaldan investisiyalara təkan veririk. Biz, həmçinin, icmaların dəyişən gələcəyə uyğunlaşmasına kömək edən layihələri maliyyələşdiririk.**

**11.6 milyard avro** – **şəbəkələrə və enerji toplama sistemlərinə yönələn maliyyələşdirmə**

**1 trilyon avro** – **2020-ci ildən 2030-cu ilədək iqlim və ətraf mühit layihələrinə investisiya**

## GÜCÜN İKİQAT ARTIRILMASI

Avropa İnvestisiya Bankı «Red Eléctrica de España» (İspaniyanın milli elektrik ötürmə sistemi operatoru) və «RTE Réseau de transport d'électricité» (Fransanın milli elektrik ötürmə sistemi operatoru) tərəfindən Biskay körfəzində həyata keçirilən elektrik interkonnektorunun qurulması layihəsini dəstəkləmək üçün 1.6 milyard avro məbləğində kredit ayırır. Layihə Fransa ilə İspaniya arasında elektrik ötürmə gücünü iki dəfə artıracaq və milyonlarla insan üçün daha təhlükəsiz və sərfəli elektrik enerjisi təmin edəcək.




# 2

**Bu texnologiyalar mobil sistemlərin məhsuldarlığını, enerji səmərəliliyini və kibertəhlükəsizliyini artırmaq üçün həlledici əhəmiyyət kəsb edir.**

# İNNOVASİYA

2025-ci ildə AİB Qrupu Avropada texnoloji innovasiyalar üzrə indiyə qədərki ən böyük maliyyələşdirmə proqramı olan «TechEU» təşəbbüsünün icrasına başladı. Bu proqram 2027-ci ilədək kreditlər, vençur borcu və kapital vasitəsilə 70 milyard avro maliyyələşdirmə təmin edərək, 250 milyard avro həcmində investisiya cəlb edəcək. Transformativ texnologiyalara yönələn bu daha iddialı yanaşma və yüksək risk götürmə qabiliyyəti sayəsində Avropanın texnoloji liderliyini gücləndirmək üçün innovasiyaların maliyyələşdirilməsi rekord həddə – 22,4 milyard avroya çatdı.

**4.1 milyard avro** – süni intellektə investisiya

## MOBİL SÜNİ İNTELLEKT

«Nokia» şirkəti növbəti nəsil mobil şəbəkələrin inkişafı üçün Avropa İnvestisiya Bankından ayrılan 870 milyon avro məbləğində kreditdən istifadə edəcək.  Şirkət «5G-Advanced» və «6G» kimi tanınan sistemlər üzərində işləyərək Avropanın mobil rabitə sahəsində texnoloji liderliyini möhkəmləndirəcək.



3

**«Indra» və «Thales» şirkətlərinə verilən kreditlər ən müasir texnologiyaların inkişafına təkan verəcək, minlərlə tədqiqatçı və mühəndisi dəstəkləyəcək.**

# TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ

**AİB Qrupu Avropanın sülh və təhlükəsizliyinə investisiya edir. Bu maliyyələşdirmə innovativ firmalara və daha köklü müəssisələrə insanları və sərhədləri qoruyan layihələrin icrasını sürətləndirməkdə kömək edir. Biz peyklərdən tutmuş kibertəhlükəsizlik həllərinə, infrastruktur və hərbi mobilliyə qədər, Avropanı təhlükəsiz saxlayan və kənar müdaxilələrdən qoruyan ideyaları dəstəkləyirik.**

**2025-ci ildə təhlükəsizlik və müdafiəyə dəstək əhəmiyyətli dərəcədə artmış, bu sahəyə 4 milyard avrodan çox maliyyələşdirmə ayrılmışdır.**

## ŞƏRQ CİNAHININ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ

AİB Qrupu Litvanın hərbi potensialını gücləndirir, o cümlədən Litva-Belarus sərhədinə yaxın hərbi baza üçün 540 milyon avro həcmində investisiya və məsləhət dəstəyi təqdim edir. Orada yerləşəcək Almaniya briqadası Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) regiondakı çevik reaksiya imkanlarını gücləndirəcək.

Qrup, həmçinin Avropanın aparıcı müdafiə şirkətlərindən olan «Indra» və «Thales» şirkətlərinin tədqiqat proqramlarını maliyyələşdirmək üçün 1 milyard avroya yaxın vəsait ayırır. Bu, yeni obyektlərin tikilməsinə, həmçinin müdafiə, kosmik texnologiyalar və mülki və hərbi uçuşlar üçün aeronavtika sahəsində tədqiqat və işləmələrin sürətləndirilməsinə imkan verəcək.



4

**Bu modernləşdirmə layihəsinin mühüm məqsədi yolları iqlim dəyişikliyinə qarşı daha dayanıqlı etməkdir.**

# BİRLİK

**Biz Avropa İttifaqında regional fərqləri azaldan və daha aşağı rifah səviyyəsinə malik icmaları gücləndirən birlik layihələrinə investisiya edirik. Bu, bərabər və ədalətli inkişafı təşviq edir və insanların harada yaşamalarından asılı olmayaraq uğur qazanmasına kömək edir ki, onlar daha yaxşı imkanlar axtarmaq üçün öz evlərini tərk etmək məcburiyyətində qalmasınlar.**

**42.8 milyard avro – 2025-ci ildə birlik sahəsi üzrə maliyyələşdirmə**

## KONKRET NƏTİCƏLƏR

2025-ci ildə AİB Polşanın daha az inkişaf etmiş bölgələrində avtomobil yollarının modernləşdirilməsinə təxminən 1.4 milyard avro investisiya edib. «Bank Gospodarstwa Krajowego» ilə birgə həyata keçirilən investisiyalar ölkədə iqtisadi fəallığı və regional inkişafı artırır, eyni zamanda mülki və hərbi mobilliyə töhfə verir. Bu layihələr, şəbəkənin təkmilləşdirilməyə daha çox ehtiyacı olan hissələrini müəyyən edən məsləhət dəstəyi ilə təmin edilib.



5

**Şəhərlərin fəaliyyətini təmin edən dövlət sektoru işçiləri üçün mənzil təminatı ən aktual çətinliklərdən biridir.**

# SOSİAL İNFRASTRUKTUR

**Bizim sosial maliyyələşdirmə fəaliyyətimiz şəhər həyatını yaxşılaşdırır, maddi baxımdan əlçatan mənzillərin sayını artırır və ictimai xidmətləri gücləndirir. Bu, insanların yeni bacarıqlara yiyələnməsinə, xəstələrə və yaşlılara qayğı göstərilməsinə kömək edən investisiyaları dəstəkləyir. Bu, bütün Avropada inklüziv və dayanıqlı artım üçün təməl yaradır.**

**10.3 milyard avro** – 2025-ci ildə sosial infrastruktura investisiya

## TƏMƏLLƏRİN QURULMASI

AİB Qrupu 2030-cu ilə qədər təxminən bir milyon madddi baxımdan əlçatan və dayanıqlı mənzilin istifadəyə verilməsinə kömək etməyi planlaşdırır. Çexiyanın aparıcı banklarından biri olan «Česká spořitelna» 60 milyon avro məbləğində kredit hesabına Praqada tibb bacıları, müəllimlər və digər vacib sahələrin işçiləri üçün 1000-dən çox maddi baxımdan əlçatan mənzilin təmin edilməsini maliyyələşdirir. Portuqaliyaya ayrılan 1,3 milyard avro məbləğində kredit maddi baxımdan əlçatan mənzil təminatını dəstəkləyəcək. İrlandiya sosial mənzil təminatçıları üçün uzunmüddətli, sabit faizli maliyyələşdirməni təmin etmək məqsədilə 400 milyon avro həcmində kredit mexanizmini istifadəyə verib. Avstriyanın «Erste Bank»ı mənzil investisiyaları, o cümlədən gənclər və yaşlı kirayəçilər üçün nəzərdə tutulan layihələr üçün 200 milyon avro vəsait alıb.




6

**Kənd təsərrüfatı sektoru İtaliya iqtisadiyyatının və kimliyinin əsas sütunlarından biridir.**

# KƏND TƏSƏRRÜFATI VƏ BİOİQTİSADİYYAT

Kənd təsərrüfatı ərzaq təhlükəsizliyimiz, ərzaq keyfiyyəti və iqtisadiyyatımız üçün həlledici əhəmiyyət kəsb edir. Biz balıqçılıq, meşə təsərrüfatı, ərzaq keyfiyyəti, kənd yerlərinin inkişafı və iqlimə uyğun istehsal kimi sahələrdə layihələrə maliyyə dəstəyi veririk. Kreditlərimiz və məsləhət xidmətlərimiz fermerlərin dolanışığını yaxşılaşdırır, ətraf mühiti qoruyur və kənd təsərrüfatı emissiyalarını azaldır.

**6.9 milyard avro** – 2025-ci ildə kənd təsərrüfatı və bioiqtisadiyyata investisiya

## İTALYAN FERMERLƏRİNİN YENİ NƏSLİ

AİB Qrupu gənc fermerlərin və kiçik bioiqtisadiyyat şirkətlərinin maliyyələşdirilməsinə kömək etmək üçün İtaliyanın şimal-qərbində fəaliyyət göstərən «Banca di Asti» regional bankına 100 milyon avrodan çox kredit ayırır. «Banca di Asti» bankına ayrılan maliyyələşmənin ən azı 10%-i gənc fermerlər üçün nəzərdə tutulacaq.



7

**Bank Ukrayna boyu təxminən 150 icmada 500-dən çox ictimai binanın təmirinə kömək edir.**

# QLOBAL İNVESTİSİYA

**Biz bütün dünyada daha güclü və qarşılıqlı faydalı tərəfdaşlıqlar qururuq. Biz Ukraynaya fəal dəstək göstəririk, Aralıq dənizi hövzəsi və Böyük Səhradan cənubdakı Afrika bölgəsi kimi regionlarda dayanıqlı inkişafı təşviq edirik. Biz iqlim fəaliyyətinə və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılmasına töhfə veririk. Biz qlobal su sektorunda ən böyük kreditorlardan biriyik.**

**AİB-in Avropa İttifaqından kənardakı investisiyalarının dörddə üçü «Global Gateway» layihələrini dəstəkləyib.**

## UKRAYNANIN FƏALİYYƏT QABİLİYYƏTİNİN QORUNUB SAXLANILMASI

Növbəti onillik ərzində maliyyələşdirmə ehtiyaclarının 524 milyard ABŞ dolları səviyyəsində qiymətləndirildiyi Ukrayna Avropa İnvestisiya Bankı üçün yüksək prioritetdir. Təcili yardımdan əlavə, AİB Qrupunun diqqəti qısa müddətdə ən böyük təsiri yarada biləcək sahələrə yönəlir. 2025-ci ildə AİB Qrupu ailələrin evlərini qızdırmasına, uşaqların məktəbə getməyə davam etməsinə və insanların tibbi yardım almasına kömək etmək üçün 1,5 milyard avro dəyərində layihələri dəstəkləyib.



8

Sekyuritizasiyalar əmanət və investisiyalar ittifaqının məqsədlərini birbaşa dəstəkləyir.

# ƏMANƏT VƏ İNVESTİSİYALAR İTTİFAQI

**Təbiətcə pan-Avropa xarakterli olan AİB Qrupu real əmanət və investisiyalar ittifaqının təməl daşları kimi çıxış edəcək maliyyə alətlərinin yaradılmasında öncüllük edir. Özəl investisiyaların cəlb edilməsi və stimullaşdırılmasında mühüm rolu sayəsində AİB Qrupu əmanətləri Avropanın texnoloji liderlərinə, innovatorlarına, «yunikorn»-şirkətlərinə və daha kiçik banklarına yönəldir. Daha yaxşı inteqrasiya olunmuş kapital bazarları investisiyaların və əmanətlərin Avropa İttifaqı daxilində sərbəst hərəkətinə imkan verəcək ki, bu da fiziki şəxslərə, investorlara və şirkətlərə fayda verəcək.**

**Əmanət və investisiyalar ittifaqı Avropaya öz daxili bazarının bütün imkanlarından yararlanmağa kömək edəcək.**

## ARTIMA TÖHFƏ

Avropa İnvestisiya Bankı Avropa bankları tərəfindən buraxılan sekyuritizasiyalara investisiya edir və real iqtisadiyyat üçün həyati əhəmiyyət kəsb edən daha çox biznesləri dəstəkləmək üçün innovativ sekyuritizasiya strukturları hazırlayır. Sekyuritizasiyalara investisiyalar vasitəsilə innovativ bankları dəstəkləməklə, AİB Qrupu daha likvid və daha iri investisiya bazarının yaranmasına kömək edir. 2025-ci ildə «ABN AMRO» tərəfindən həyata keçirilən 1 milyard avro məbləğində sintetik sekyuritizasiya əməliyyatı AİB Qrupu tərəfindən indiyədək dəstəklənmiş ən iri sekyuritizasiyadır. Bu, həm də Avropa İnvestisiya Bankı və sekyuritizasiya əməliyyatlarını strukturlaşdıran Avropa İnvestisiya Fondu üçün mühüm bir addımdır.

# AVROPA İNVESTİSİYA FONDU HAQQINDA

Avropa İnvestisiya Fondu (AİF) AİB Qrupunun kiçik müəssisələrin böyüməsinə kömək edən ixtisaslaşmış qoludur. AİF banklara Avropa müəssisələrinə investisiya etməkdə kömək etmək üçün kredit zəmanətləri verir, həmçinin innovativ sahibkarlara dəstək məqsədilə vençur kapitalı fondları, özəl kredit, özəl səhmdar kapitalı və infrastruktur fondları ilə əməkdaşlıq edir.

Avropa İnvestisiya Fondu 1994-cü ildə kiçik müəssisələr üçün maliyyələşməni daha əlçatan etmək məqsədilə yaradılıb. Fond startap mərhələsindən beynəlxalq miqyasda genişlənməyə qədər inkişafın müxtəlif mərhələlərində olan şirkətlərə dəstək göstərir. Məqsədlərdən biri Avropada biznes investisiyaları üçün daha yaxşı ekosistem yaratmaq olsa da, AİF həmçinin innovasiya, rəqabətqabiliyyətlilik, sosial təsir və dayanıqlılığa da töhfə verir.

**2025-ci ildə dayanıqlılıq, sosial təsir, innovasiya və inkişaf üçün 15.7 milyard avrodan çox vəsait ayrılıb.**

**AİF gələcəyin həllərini hazırlayan erkən mərhələdəki innovatorları və iddialı, yeni sektorlara daxil olan köklü müəssisələri dəstəkləyir.**



## QLOBAL ARTIM, AVROPA ÜÇÜN TƏSİR

Avropa İnvestisiya Fondu «Jolt Capital» fonduna 260 milyon avro investisiya etməklə, Parisdə yerləşən şirkətin Avropanın dərin texnologiya şirkətlərini dəstəkləmək üçün dünyanın müxtəlif yerlərindən əlavə 800 milyon avroyadək investisiya cəlb etməsinə dəstək verir. AİF-in investisiyası iri vençur kapitalı fondlarına investisita qoymaqla Avropadakı genişlənmə boşluğunu aradan qaldıran «Avropa Texnoloji Çempionlar Təşəbbüsü»nün bir hissəsidir.

# QISA İCMAL

2026

Avropa İnvestisiya Bankı | Qrup

**AİB Qrupunun strateji prioritetləri haqqında daha çox məlumat əldə edin.**

pdf: ISBN 978-92-861-6192-6

© Avropa İnvestisiya Bankı, 05/2026 AZ 2025-0389